# Müəllimlik sənətinin zirvəsində



**Öz iradəsi, mərdliyi, saflığı və sədaqəti ilə ömrümüzün bəzəyi, naxışı, əbədi gözəlliyidir analarımız. Yaşımızdan asılı olmayraq hər an aradığımız, soraqladığımız güclü, məğrur qadın! Əsrlərin yaddaşında qalan izlər istəkləri, arzuları, sevinc və kədərləri bir-birinə bənzəyən analarımızın qəhrəman keçmişindən söz açır...**

Keşməkeşli inkişaf yolu keçmiş Azərbaycan qadını XX əsrin əvvəllərində ölkəmizdə baş verən siyasi, iqtisadi və mədəni proseslərin fonunda daha da fəallaşdı.

Bu gün cəmiyyətin həyatında qadınlarımızın xüsusi rol oynaması ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş ənənələrin təntənəsidir. O deyirdi: "Dövlət quruculuğumuzun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, mənəviyyatımızın inkişaf etdirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər". Ulu öndərin Azərbaycana rəhbərliyinin bütün dövrlərində qadınlarımızın elm, mədəniyyət, sənaye, kənd təsərrüfatı və b. sahələrdəki xidmətləri xüsusi qiymətləndirilmişdir. Bu gün alim, həkim, müəllim, şair, bəstəkarlardı Azərbaycan qadını. Hansı peşənin sahibi olur-olsun o, üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir, cəmiyyətə faydalı vətəndaşlar yetişdirir.

Aygün Həşimova da peşəsini, sənətini sevən gözəl pedaqoq, həm də ailənin xanımı, həyat yoldaşı və hər şeydən əvvəl isə məhəbbətə, sevgiyə layiq fədakar anadır.

Qısa bir vaxtda isə peşəsinə sonsuz məhəbbəti, gərgin əməyi, zəhmətsevərliyi ilə sevib-seçdiyi sənətinin zirvəsini fəth etməyi bacırıb. Belə ki, 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuş, 2014-cü ildə "Tərəqqi" medalına, 2015-ci ildə yenidən "İlin ən yaxşı müəllimi" adına layiq görülmüş Aygün Həşimova 1996-cı ildə Bakı Ali Pedaqoji Qızlar Seminariyasını (indiki Qızlar Universitetini) bitirərək Səbail rayonundakı 190 saylı tam orta məktəbdə ibtidai sinif müəllimi kimi fəaliyyətə başlayıb. 2005-ci ildən isə Kurikulum Mərkəzinin ibtidai təhsil şöbəsi ilə sıx əlaqə saxlayaraq seminar və treninqlərdə yaxından iştirak etmiş, ibtidai siniflərdə riyaziyyat fənn kurikulumunun hazırlanması və tətbiqi ilə bağlı yaradılmış işçi qrupunun üzvü olmaqla sənətinin zirvəsinə gedən yola çıxmış, bu yolda addım-addım irəliləyərək bir çox uğurlara nail olmuşdur. 2012-ci ildə Los Angeles California Universitetinin "İbtidai siniflərdə kurikulumun idarə edilməsi" və "İlk tibbi yardım" 2, Kiprin Ak Deniz Universitetinin "Mobil Kurikulum 2012" beynəlxalq sertifikatları, 2013-cü ildə "Öyrədənlərin öyrədəni" kursunu bitirərək "Təlimçi" statusu qazanması və elə həmin ildə Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin və Azərbaycan Universitetinin dəstəyi ilə reallaşan "Fənn müəllimləri üçün yeni ümumi orta təhsil kurikulumu üzrə təlim layihəsi çərçivəsində təlimçi müəllim kimi fəaliyyəti bu uğurların göstəricisidir. Aygün Həşimova bu uğurların qazanılmasından danışaraq deyir: "Dövlətimizin başçısı bütün sahələrə olduğu kimi təhsil sahəsinə də hər zaman diqqət və qayğı ilə yanaşır. Son illər bu sahədə atılan addımlar, aparılan islahatlar, yeniliklər bunun bariz nümunəsidir. Yeni tikilən, əsaslı təmir olunaraq yenidən qurulan məktəblər, təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının qəbul edilməsi, Kurikulum Təhsil İslahatı və bu kimi çoxsaylı tədbirlər müəllim əməyinə, bütünlükdə isə Azərbaycan təhsilinə göstərilən qayğıdır. Məni öz sənətimlə yaşamağa, dövlətimizə, cəmiyyətimizə savadlı, vətənpərvər, dünyagörüşlü övladlar yetişdirməkdə daha böyük uğurlara səsləyən də budur. Onu da deyim ki, biliyin təməli məhz ibtidai siniflərdə qoyulur. Bu təməlin, bünövrənin düzgün qoyulmasında isə məktəb rəhbərliyinin də üzərinə böyük məsuliyyət düşür. Müəssisədə pedaqoji kollektivə yaradılan şərait, nümunəvi nizam-intizam, müəllim-valideyn-şagird münasibətlərinin düzgün qurulması və s. yüksək göstəricilərin meyarıdır. Bütün bunların yaradılması üçün isə məktəbimizin direktoru Ceyran Quliyevaya minnətdaram. Yaxşı müəllim olmaq üçün yaxşı şərait də əsas şərtlərdəndir. Müəllim ucalıq, ziyalılıq, mənəvi saflıq rəmzidir. Bu adı daşımaq insandan böyük cəsarət, məsuliyyət tələb edir. Bunun üçün isə ən azından bu sənəti sevməlisən".

Bəli, Aygün müəllim öz sənətinə hörmət edən, onu sevən və ona qəlbən bağlı olan müəllimlərimizdəndir. O özünü bu sevgini onun canına, qanına hopdurmuş və bəlkə də elə onun özü ilə birgə dünyaya gətirmiş anası, uzun illər ibtidai sinif müəllimi işləmiş Adilə müəllimə borclu sayır. Ona həyat dərsi vermiş, analığı, müəllimliyi öyrətmiş Adilə müəlliməyə. Biz də 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə hər cür hörmətə, sevgiyə layiq olan analarımızı təbrik edir, bahar təravətli ömür arzulayırıq.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**